**UOT 82(100) (091)**

# ÖZBƏK ƏDƏBİYYATININ İNKİŞAF TARİXİ

**Lalə BAYRAMOVA VAHİDLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 1 noyabr 2023; çapa qəbul edilmişdir: 21 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.

Received: 1th of November, 2023; accepted: 21th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *özbək ədəbiyyatı, dövr, əsər, cığatay, cədid, müasir ədəbiyyat*

## Giriş

Müasir dünyamızın ictimai-siyasi modelinin, ədəbi-bədii fikrinin formalaşmasında qədim və zəngin mədəniyyətə sahib olan türk xalqlarının rolu danılmazdır. Tarix səhifələrində unudulmaz izlər qoyan qüdrətli türk xalqları həm öz yaşadıqları bölgələrə, həm də qarşılıqlı münasibətdə olduqları bütün ərazilərə mədəni və mənəvi çox böyük təsirlər göstərmişdirlər. 2800 il siyasi təşkilatlanma, 2.700 il ədəbiyyat və 2.500 il yazı mədəniyyətinə malik olması belə türklərin nə qədər qədim və zəngin kökləri olmasının sübutudur. Tarixi qüdrəti ilə yanaşı hər bir türk xalqının milli təfəkkürünün və dünyagörüşünün formalaşmasında onun ədəbiyyatı da ciddi rol oynamışdır. Yüz illər boyu müxtəlif çətinliklərlə üzləşən bu xalqların görkəmli ədəbi nümayəndələri öz üsyanlarını, kədərlərini, sevinclərini bədii əsərlər vasitəsi ilə ifadə etmiş, insanlara mənəvi dəstək olaraq, onları ruhlandırmışdır (1, s. 10).

Türk xalqaları içində qədim tarixə və mədəniyyətə sahib olan xalqlardan biri də, özbəklərdir. Çoxillik tarixə malik olan özbək ədəbiyyatı sadəcə Orta Asiyada deyil, Yaxın və Orta Şərqdə yaşayan bir sıra xalqların ədəbiyyatına, mədəniyyətinə və dünyagörüşünün formalaşmasına müəyyən dərəcədə təsir göstərmişdir. Öz ideya zənginliyi və görkəmli ədibləri ilə bir-birindən fərqli, lakin bir-birinə sıx bağlı olan yazılı özbək ədəbiyyatı iki əsas hissəyə bölünür: klassik və yeni (müasir) Özbək ədəbiyyatı (1, s. 10).

Özbək ədəbiyyatında həm dil, həm də mövzu baxımından əsaslı inkişaf orta əsrlərin əvvəlində müşahidə olunur. Bu dövrün görkəmli nümayəndələrindən biri olan Yusif Əmiri, Ətai, Hüseyni, Səkkaki və Lütfi kimi ədiblərin əsərləri özbək ədəbiyyatının mövzu və janr baxımından zənginləşməsində böyük rol oynamış, həmçinin sonrakı dövrlər üçün əsaslı zəmin hazırlamışdır. Bu zəmin əsasında yazıb yaradan dahi sənətkar Əlişir Nəvai isə XV əsrdə Özbək ədəbiyyatının ən mühüm ədəbi abidələrini yaratmışdır (14, s. 4).

SSRİ-nin tərkibinə daxil olan digər dövlətlər kimi Türküstan da, hər sahədə sovet ideologiyasının təsirinə məruz qalmışdır. Məhz bu dövrlərdə özbək ədəbiyyatı da basqılara məruz qalmış və sovet ideologiyasının tələblərinə uyğun inkişaf etdirilmişdir. Özbəkistan Respublikasının müstəqilliyindən sonra isə müstəqillik idealarınan söykənən, vətənpərvər ruhda əsərlər yazılmağa başalmışdır. Bu dövr özbək ədəbiyyatının ən yeni dövrü olaraq səciyyələndirilir (1, s. 249-250).

## 1. Klassik özbək ədəbiyyatı

Bu dövr özbək ədəbiyyatının başlanğıc mərhələsinin ilk addımları kimi dəyərləndirilmişdir. XI-XIX əsrləri əhatə edən klassik özbək ədəbiyyatı da özlüyündə Qaraxanlı ədəbiyyatı (XI-XII), Xarəzm ədəbiyyatı (XIV), Cığatay ədəbiyyatı (XIV-XVI) və Xanlıqlar dövrü ədəbiyyatı (XVII-XIX) olaraq müxtəlif mərhələlərə bölünür. Xüsusilə XIV əsrə qədər olan dövrdə ədəbiyyatşünaslıq, forma və məzmun baxımından kifayət qədər dolğun olmadığı üçün arayışlar içindəydi (12, s. 37).

* *Bakı Avrasiya Universiteti, elmi işçi*
*e-mail:* Lalebayramova.09@gmail.com

Qaraxanlı ədəbiyyatının əsasını da türk dilini, dünya görüşünü və inancını əks etdirən əsas əsərlərdən olan "Divani-lüğət-it-türk", "Qutadqu bilik" və "Atabətül-həqayiq" təşkil edir. Bu əsərlərin hər biri Qaraxanlı türkçəsində yazılmışdır. Daha sonradan Qaraxanlı türkçəsinin Oğuz türkçəsi və Qıpçaq türkçəsi ilə birləşməsindən yaranan Xarəzm türkçəsi klassik ədəbiyyatın növbəti mərhələsinə keçidin əsasını qoyur. Nəsrəddin Rabquzi, Kərdərli Mahmud, Seyfi Serayi kimi dahi sənətkarlar öz əsərlərini Xarəzm türkçəsində yazmışdırlar. Qaraxanlı və Xarəzm ədəbiyyatının dili və ədiblərin əsərləri növbəti mərhələlər üçün özül rolunu oynamışdır (5, s. 125).

**2. Cığatay ədəbiyyatı**

Cığatay ədəbiyyatının neçənci əsrləri əhatə etməsi haqqında tarixçilər arasında fikir ayrılıqları vardır. Lakin Özbək ədəbiyyatında yazıçı və şairlərin istifadə etdiyi dil və ləhçələrə əsaslanaraq, bu dövrün XIV-XVI əsrləri əhatə etdiyi qeyd edilir. Ədəbiyyatın bu mərhələsi monqol xaqanı Çingiz xanın ortancıl oğlu Cığatayın şərəfinə Cığatay ədəbiyyatı adlandırılmışdır. Lakin müasir dövrümüzdəki özbək alimləri bu adı istifadə etməyə meyilli deyillər. Buna əsas səbəbdə həmin dövrdə hökümran qüvvə monqollar olsalar da, yerli əhalinin daha çox türklərdən ibarət olması və onların yerli türk ləhçələrindən istifadə etməsi ilə əlaqədardır. Ona görə də, müasir alimlər bu dövrdən danışarkən əski (qədim) özbək dili və ədəbiyyatı olaraq bəhs edirlər (8, s.117).

Ədəbiyyatın bu dövrü forma və məzmun baxımından təkmilləşmə dövrü olaraq dəyərləndirilmişdir. Bu dövrdə ədəbiyyatşünaslıq və ədəbi tənqidşünaslıq; ədəbi prosesin bir çox məsələləri haqqında tarix, ədəbiyyat, elmi nəzəriyyələrə əsaslanan düşüncələrini ifadə edən çoxsayılı ədib və əsərləri yetişdirmişdir (12, s. 73).

XIV əsrin sonu-XV əsrin əvvəllərini əhatə edən dövrlərdə Cığatay ədəbiyyatının ən görkəmli nümayəndələri Səkkaki, Heydər Xarəzmi, Durbək, Lütfi, Yusif Əmiri, Səid Əhmədi, Seyfi Buxari və s. olmuşdur. Bu dövrün görkəmli nümayəndələri öz əsərlərini həm fars, həm də türk dillərində yazmışdırlar. Fars ədəbiyyatının təsirinə məruz qalan bu ədiblər daha çox əruz vəznində və dörtlük formada olan Yəsəvi şeir formasından istifadə etmişlər. Həmçinin dövrün ən çox sevilən və istifadə edilən şeir növlərindən olan qəzəl, qəsidə, məsnəvi, müstəzad, qitə və rübai də fars ədəbiyyatının təsirlərini göstərən əsas faktorlardandır (2, s.126).

Bu dövrün əsas xüsusiyyətlərindən biri kimiədəbiyyatın ədəbi tənqidi dövrünün başlanğıc mərhələsini qeyd edə bilərik. Belə ki, bu dövr haqqında səslənən fikirlər XV əsr ədəbi mühitinə əsaslanır. Dövrün yazıçı və şairlərinin əksəriyyəti müxtəlif formada ədəbi proses haqqında fikir və mülahizələrini bildirmişdirlər (12, s. 74).

XV əsrin birinci yarısında özbək ədəbiyyatında ən çox yayılan janrlardan biri də müzakirə janrı idi. Nəsr və nəzmin qarışığından ibarət olan bu janr iki nəfərin dialoquna əsaslanırdı. Yusif Əmirinin "Bənq və Çağır" ("Cənnət və Şərab"), Yəqininin "Ox və Yay" və Əhmədinin "Simli alətlər və onun adsız debatı" adlanan başlıqsız müzakirələri bu janrın əsas nümunələridir. Həmçinin, Xocendinin "Lətafətnamə", Səid Əhməd Mirzənin "Təşəkkürnamə", Yusif Əmirinin "Dəhnamə" əsərləri cığatay ədəbiyyatının əsasını təşkil edir (5, s. 127).

XV əsr özbək ədəbiyyatından danışarkən dahi şəxsiyyət Əlişir Nəvainin adını qeyd etməmək mümkün deyil. Onun elm və ədəbiyyatşünaslıq sahəsindəki fəaliyyətləri təkrarolunmazdır. Əlişir Nəvai sadəcə özbək xalqı tərəfindən deyil, həmçinin bütün Yaxın Şərq xalqları tərəfindən sevilən şair, alim, dövlət xadimi və mədəniyyət nümayəndəsi olmuşdur. Onun əsərləri özbək ədəbiyyatının çiçəklənməsinə və inkişaf etməsinə böyük töhfələr vermişdir (1, s. 251).

Mir Əlişir Nəvai XIX əsrdə Şərqdə inkişaf etməyə başlayan türk dili və ədəbiyyatını ən yüksək səviyyəyə çatdırmış, türk mədəniyyət tarixində əsərləri ilə oyatdığı əks-səda ondan sonra gələn şairlərə təsir edərək, türk ədəbiyyatı tarixində ən mühüm yeri tutmuşdur (14, s. 254).

Fuad Köprülü Nəvai və cığatay ədəbiyyatı ilə bağlı ilk və ən əhatəli araşdırma sayıla biləcək MEB İslam Ensiklopediyasındakı "Cığatay ədəbiyyatı" məqaləsində ciğatay ədəbiyyatını dövrlərə ayırarkən, Nəvainin yaşadığı XV əsri iki dövrə bölmüşdür. Birincisi, "Klassik dövrün başlanğıcı Nəvaiyə qədər", ikincisi isə "klassik cığatay dövrü-Nəvai dövrü" adlanır, çünki onu ədəbi bir dil

halına gətirən Nəvaidir (4, s. 271).

Əlişir Nəvainin yaradıcılığını özbək ədəbiyyatının qızıl dövrü kimi qiymətləndirirlər. Yüzlərlə bənzərsiz əsər sahibi olan görkəmli şairin lirik əsərləri beş divan şəklində tərtib edilmişdir. Bu divanlardan dördü türk, biri isə fars dilində yazılmışdır. Yaradıcılığında lirikaya xüsusi yer verən Nəvai demək olar ki, lirik janrın bütün növlərində əsərlər yaratmışdır. Qəzəl janrı bu əsərlər arasında xüsusən fərqlənirdi. Onun qəzəlləri səlis dili və dərin mənası ilə seçilirdi. Məhz buna görə də, Nəvai "qəzəl mülkünün sultanı" kimi adlandırılırdı (1, s. 255).

Çox sayılı lirik şeirlərinə baxmayaraq, Nəvai özbək ədəbiyyatında daha çox "Xəmsə" müəllifi kimi tanınır. Dövrünün Xəmsə adət-ənənəsinə sadiq qalan şair 1483-1485-ci illərdə 25.620 beytdən ibarət "Heyrətül-əbrar", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Səbəyi səyyar", "Səddi-İsgəndər" adlı beş poema yazmışdır. Eyni zamanda, bu poemalarında Nəvai Nizami Gəncəvinin əsərlərinə nəzirə yazmışdır (2, s. 7).

XVI əsrdə ölkə daxilində yaranan siyasi problemlər və hakimiyyət uğrunda gedən münaqişələr özbək ədəbiyyatına da təsir etmişdir. Hakimiyyətin Şeybanilərin əlinə keçməsi ölkə birliyini bir müddət qoruyub saxlasa da, bu birlik daxili çəkişmələrə qarşı uzun müddət tab gətirmədi və ölkə üç xanlığa bölündü. Bu isə özbək ədəbiyyatında yeni bir dövrün başlanğıcı demək idi (5, s.128).

### 3. Xanlıqlar dövrü özbək ədəbiyyatı

XVI əsrdə həm xarici, həm də daxili münaqişələrə tab gətirməyən Türküstan  Buxara, Xivə və Kokand adlanan üç əsas xanlığa bölünmüşür. Ölkəyə hər tərəfli ziyan vuran bu bölünmə ədəbiyyata da təsirsiz ötüşməmişdir. Özbək ədəbiyyatının məhz bu dövrü geriləmə dövrü olaraq qeyd edilir. Bu dövrdə yazılan əsərlərin əksəriyyətinin Əlişir Nəvai yaradıcılığının təqlidi olduğu görülür. Yeni əsərlər isə olduqca az idi (9, s. 58).

Lakin bu vəziyyət mədəniyyət və ədəbiyyatın tamamilə tənəzzülə uğradığı mənasına gəlmirdi. Bu çətin vəziyyətlərdə belə öz fikirləri və əsərləri ilə xalqının yadınında olan ədiblər də var idi (10, s. 5).

Parçalanmalar, vahid ədəbi  mərkəzin olmaması, xüsusilə XVII əsrdə özbək ədəbiyyatına yeni xüsusiyyətlər qazandırmışdı. Əsas ədəbi mərkəzlər Herat və ya Səmərqənd, eyni zamanda Xarəzmdə cəmləşmişdi. Xüveydo, Akmal, Nizami, Nadir, Üveysi kimi şairlər bu ədəbi mərkəzlərin yetişdirdiyi şairlərdən idilər. XIX əsrdə Xarəzmdə Munis, Ziyrək, Ağahi və Dilavari önə çıxmış şairlərdən idi. Öz ənənələrini yaşadan  üçüncü ədəbi mərkəz Buxara idi. Buxara xanlığında iki dildə yazmaq xarakterik idi. Abdullah Mülhəm Buxari, Şəmsuddin Şahin, Əhməd Doniş kimi məşhur şairlər yalnız farsca yazan şairlər, Sədr Ziya, sonralar Sədriddin Ayni və başqaları da özbək dilində yazan şairlər kimi tanınmışdılar (13, s. 2).

Xanlıqlar dövründə ədəbiyyatın əsas inkişaf etdiyi yer şeyxlərin fəaliyyət göstərdiyi saraylar olmuşdur. Saray ədəbiyyatının nümayəndələri ümumi Cığatay ədəbiyyatının xüsusiyyətlərini daşısalar da, aid olduqları xanlıqlara görə müxtəlif üslubi cəhətlərə sahib idilər. Yuxarıda qeyd etdiyimiz kimi, hər üç xanlıqda əsərlər adətən türk və fars dilində yazılırdı. Türk dilinə ən çox üstünlük verən xanlıq isə Xivə xanlığı idi. Həmçinin, Xivə xanlığı Əlişir Nəvai ənənəsini davam etdirən şairlər yetişdirirdi. Bu qrupa daxil edilən başlıca şairlərdən biri də Şirməhəmməd Munis olmuşdur. Ədəbiyyat sahəsində danılmaz xidmətləri olan Şirməhəmməd Munis, böyük klassiklərin ənənələrini davam etdirmişdir (13, s. 2).

Kokand xanlığı ənənəvi yaradıcılıq nümunələri ilə yanaşı epik əsərlərin yazılışına da üstünlük vermişdir. Burada epik əsərlər içərisində dastan yaradıcılığı xüsusi yer tuturdu. Bu xanlığı digərlərindən fərqləndirən bir digər amil isə qadın şairlərin olması idi. Nadirə Bəgüm, Dilşad Bərna, Məhzunə, Ənbər xatun, Nazimə xanım kimi şairələr Nəvai, Füzuli və Bədil kimi klassik şairlərin ənənəvi üslubunu davam etdirməklə yanaşı, özbək ədəbiyyatına ilk dəfə qadın nöqteyi-nəzərini gətirmişlər. Bu şairlər əsərlərində yeni mövzulara yer verməlari ilə də diqqət çəkmişlər. Qadın azadlığı, dini məsələlərə fərqli yanaşmalar onların əsərlərinin başlıca mözvularından biri olmuşdur.

Bununla yanaşı, xanım şairlər ilk dəfə olaraq "çiston" adlanan şeir-tapmaca üslubunun da əsasını qoymuşlar (14, s.13).

Buxara xanlığında isə ədəbi əsərlərin əsas hissəsini tarixi əsərlər təşkil edirdi. Bu xanlıqda əsərlər daha çox fars-tacik dillərində yazılırdı. Buxara ədəbiyyatının Turdi Faroğiy və Boborahim Maşrab adlanan iki əsas təmsilçisi var idi. Hər iki şair Nəvai və Füzuli yaradıcılığından təsirlənmiş və əsərlərini ənənəvi üslubda yazmışdırlar. Həmçinin ədəbiyyatda ilk dəfə "Özbəkistan" sözü də, məhz bu şairlərin yaradıcılığında Buxara ədəbiyyatında istifadə edilmişdir (5, s.129).

XIX əsrin ikinci yarısından başlayaraq Türküstan ərazisində ciddi dəyişikliklər müşahidə edilməyə başlayır. Türküstanın ruslar tərəfindən istila edilməsi bu dəyişikliklərin başlıca səbəbi idi. Məhz bu dəyişikliklər nəticəsində Kokand, Xivə, Buxara, Səmərqənd və Daşkənd ərazilərində "Cedidcilik" adlanan yeni bir hərəkat başlamışdır. Bu dəyişikliklər və yeniliklər özbək ədəbiyyatına da təsirsiz ötüşmədi (8, s.123).

### 4. Yeni dövr özbək ədəbiyyati

XIX əsrin sonlarından (1860-cı illər) başlayaraq, XX əsrin əvvəllərinə qədər davam edən dövr yeni dövr özbək ədəbiyyatının formalaşmağa başladığı dövrdür (7, s.11).

Bu dövr Türküstanın çar Rusiyası tərəfindən işğalı ilə başlayır. Bu dövrdə özbək ədəbiyyatında roman, teatr, hekayə kimi yeni janrlar yaranmağa başlamışdır. Bu inkişaf həm ictimai-siyasi dəyişikliklərlə, həm də mətbəənin ictimai həyatda öz yerini tutması ilə bağlıdır. Bu dövr keçid dövrü hesab olunur (5, s.168).

XIX əsrdən başlayaraq, Türküstan ərazisində baş verən siyasi hadisələr və hökümranlığın əl dəyişdirməsi ədəbiyyata da təsirsiz ötüşməmişdir. Bu təsirlər nəticəsində müasir özbək ədəbiyyatı müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Siyasi təsirlərə məruz qalan bu inkişaf mərhələlərini 4 əsas qrupda birləşdirə bilərik:

1. Maarifçilik dövrü ədəbiyyatı
2. Cədid (Yenilik) dövrü ədəbiyyatı
3. Şuralar dövrü (Sovetlər dövrü) ədəbiyyatı
4. Müstəqillik dövrü ədəbiyyatı (8, s.124).

### 5. Maarifçilik dövrü ədəbiyyati

Özbək ədəbiyyatının yeni dövrünün ilk mərhələsi sayılan maarifçilik ədəbiyyatını səciyyələndirən ən əsas xüsusiyyət onun səlis və anlaşıqlı dilinin olıması idi. Bu dövrdə elm və maarif ədəbiyyatın əsas mərkəzi nöqtəsi olmuşdur. Xalqın gündəlik həyatı və sıravi insanların yaşam tərzi maarifçilik ədəbiyyatının əsas mövzusunu təşkil edirdi. Müasir yazıçıların əsərlərinə baş qəhrəman olaraq sadə insanları seçməsi, hekayə və romanlarının dilinin xalq dilinə yaxın olması, insanların hisslərinin, həyəcanlarının və xəyallarının realist bir şəkildə ədəbiyyata yansıdılması bu dövrün əsas xüsusiyyətlərindən idi (8, s.124).

Maarifçilik dövrü bəzi qaynaqlarda keçid dövrü kimi də qeyd edilir. Bunun əsas səbəbi Rus çarlığının hakimiyyəti altında olan Türküstan ərazisinin hər sahədə yeni dövrə keçid etməsi ilə əlaqədardır. Baş verən köklü dəyişikliklər özbək ədəbiyyatında milli oyanış və ya milliləşmə kimi qeyd edilir. Bu dövrdə ortaya çıxan bir çox ədəbi janrlarla yanaşı, publisistika sahəsində də əsaslı dəyişikliklər müşahidə olunmuşdur. Özbək xalqının ilk jurnalisti olan Furqat 1870-ci ildən bəri Daşkəntdə çap edilən "Turkiston viloyatining gazeti" (Türküstan ölkəsinin qəzeti) adlı qəzetə məqalələr yazmışdır. 1917-ci ilə qədər çap edilən bu qəzetdə məqalələr rus və türk dillərində yazılırdı. Bununla yanaşı, İstanbul, Kazan, Bakı və Baxçasaray şəhərlərində çap edilən qəzetlərdə ölkə ərazisinə gətirilir. Bu dövrlərdə özbək xalqının maariflənməsində həm çap edilən qəzetlərin, həm də ruslarla birlikdə Türküstan ərazisinə köçüb gələn tatarların böyük rolu olmuşdur. Tatarların ölkəyə Avropa mədəniyyətini və ədəbiyyatını gətirməsi nəticəsində, özbək xalqı ilk dəfə teatr ilə məhz bu dövrdə tanış olmuşdur (5, s.130-131).

XX əsrin əvvəllərində milli oyanışa çağıran Cədidçilik hərəkatı yaranmış, getdikcə inkişaf

etmişdir. Bu hərəkatın əsas məqsədi xalqı maarifləndirərək millətin inkişafına, oyanışına kömək etmək idi (11, s. 34).

Yenilik və ya yenilənmə mənası verən Cədid ədəbiyyatının adı İsmayıl Qaspiralının fəaliyyətləri ilə bağlıdır. İ.Qaspiralının 1893-cü ildə Buxaraya gəlməsi və burada özünə məxsus "Üsulicədid" adlı məktəb açması onun yenilikçi ideyalarının surətli şəkildə Türküstana yayılması ilə nəticələnmişdir (8, s.125). Lakin, ölkə ərazisində illər boyu yayılmış mədrəsə siyasəti bu yeniliklərə qarşı müqavimət göstərirdi. Bunun nəticəsində mədrəsələrin çox olduğu Buxara və Səmərqənd kimi iri şəhərlərdə qədimilər kimi tanınan din xadimləri ilə cədidçilər arasında ziddiyyətlər yaranmışdır (5, s.131).

Bütün qarşıdurmalara baxmayaraq, Cədid ədəbiyyatı özbək dili və ədəbiyyatının formalaşmasında mühüm rola sahibdir. Belə ki, müasir özbək dilinin təməli və formalaşması da məhz bu dövrdən başlayır. Həmçinin, maarifçilik dövründə çiçəklənməyə başlayan publisistika da bu dövrdə daha da inkişaf etmişdir. Nəşr edilən bütün qəzet və jurnallar özbək dilində çap edilməyə başlamışdır. Xalqın milli və mənəvi ruhunu əks etdirən, onları dil və mədəniyyət birliyinə çağıran ilk qəzetlərdən biri də "Tərəqqi" qəzeti olmuşdur (8, s.125-126).

Cədid ədəbiyyatının əsas təmsilçiləri Məhmudxoca Behbudi (1875-1919), Munavvar Qori, Abduraşidxonov (1878-1931), Abdulla Avloni (1878-1934), Abdurauf Fitrət (1886-1938), Həmzə Həkimzoda (1889-1929), Abdulla Qodiri (1894-1938), Əbdülhəmid Çolpon (1897-1938), Səid Əhməd Əczi (1864-1927), Sidqi Xondayliqi (1884-1934), Vəsli Səmərqəndi (1869-1925), Tolaqan Xocaiyorov Tavallo (1882-1939), Məhəmməd Şərif Sofizoda (1869-1937) və s. göstərmək olar (7, s.12).

Belə ki, özbək ədəbiyyatının ilk dram əsər yazıçısı olan Behbudinin 1911-ci ildə yazdığı "Padarqush" (Pederquş) dramı ölkənin bir çox teatrlarında səhnəyə qoyulmuş və xalq tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Bu cür dram əsərlərinin səhnələşdirilməsi özbək xalqının maariflənməsində və yenilikçi ruhun aşılanmasında böyük rolu olmuşdur (8, s. 126).

### 6. Sovetlər dövrü ədəbiyyatı

1917-1991-ci illəri əhatə edən bu dövr özbək ədəbiyyatı Sovet sisteminə uyğun yazılmış ədəbi əsərlərdən ibarətdir. Dövrün yazıçıları əsas fikirlərini nəsr əsərləri üzərində cəmləşdirmişdi. Bunun nəticəsində uzun hekayələr və roman janrlarındakı əsərlərin sayında artım müşahidə olunurdu. Abdulla Qodiriy, Qafur Gulom, Husayn Şams, Oxundiy, Manzura Sobirova Oydin, Abdulla Qahhor, Qayratiy, Ayniy ve Oybek kimi yazıçılar Sovetlər dövrü ədəbiyyatının ən məhşur nəsr yazıçılarından idilər (5, s.135).

Rus hakimiyyətinin təsiri altında olan özbək ədəbiyyatının əsas mövzusu, İkinci dünya müharibəsi dövründə və müharibədən sonra fərqli şəkildə təzahür etmişdir. Belə ki, 1941-ci ildə böyük vətən müharibəsinin başlaması ilə SSRİ-nin tərkibində olan bütün xalqlar *"hər şey cəbhə üçün, hər şey qalibiyyət üçün"* şüarı altında birləşmişdirlər. Bütün əhalisi ilə səfərbər olan xalqlardan biri də özbəklər olmuşdur. Özbək xalqı cəbhədə qalibiyyət uğrunda savaşarkən yazıçılar da kəskin qələmləri ilə onlara dəstək verirdilər. Buna görə də, 1941-1945-ci illəri əhatə edən Böyük Vətən müharibəsi dövründə özbək ədəbiyyatının əsasını vətənpərvərlik, vətənə sevgi və dostluq kimi mövzular təşkil edirdi. Müharibə illərində yazılmış "Ölim yavge" (Ölüm düşmana), "Vatan üçün" (Vətən üçün), "Merd oğıl" (Mərd Oğul), "Özbekler, Vatan cânbâzlerige" (Vətən fədailərinə), "Özbekistân bahâdırları" (Özbəkistan bahadırları), "Kasem" (And) kimi antologiyalar özbək xalqının hərbi şücaətini, fədakarlığını və vətənpərvərliyini dolğun şəkildə təsvir edir (9, s. 94).

Müharibədən sonrakı dövrdə isə özbək ədəbiyyatının təməl mövzusunu xarabaya çevrilmiş kəndlər, şəhərlər və kolxoz təsərrüfatlarının təsviri təşkil edirdi. Bu dövrdə ədəbiyyat və sənətin həyati əhəmiyyəti artmışdı. Bunun nəticəsində xalqın ədəbiyyata və sənətkarlıq nümunələrinə dair gözləntiləri və tələbləri də artmışdı. Lakin, ədəbiyyatın inkişafına mane olacaq fərqli təzyiqlər hələ də mövcud idi. Bunlardan ən əsası yazıçıların yaradıcılıq hissini boğub aradan qaldırmaq istəyən Kommunist ideologiyası idi. Kommunist partiyası bir çox şair və yazıçıları təzyiq altında saxlamış,

onları haqsız yerə həbs etdirmiş və ya sürgün etdirmişdir. Şeyxzadə, Səid Əhməd, Şuhrat və Şükrüllah kimi məşhur qələm sahibləri bu ideologiyanın qurbanı olmuş, "milliyətçi" damğası vurularaq uzaq yerlərə sürgün edilmişdirlər (9, s.101).

Kommunist partiyasının əsas ideologiyasını konfliktsizlik nəzəriyyəsi təşkil edirdi. Bu nəzəriyyəyə görə Sovet həyatının sadəcə müsbət cəhətlərini təsvir etmək olardı, mənfi cəhətlərdən isə bəhs etmək ümumiyyətlə qadağan idi. Həyat və insan arasındakı ziddiyyətləri göstərmək cəmiyyətə qarşı düşmanlıq olaraq qəbul edilirdi. Bu cür ideologiyalar yazıçı və sənətkarların üzərində mənfi təsirlər göstərirdi (9, s.101).

1960-cı illərin sonu 1970-ci illərin əvvəllərində SSRİ-də hakimiyyətin zəifləməsi ilə yaranan siyasi dəyişikliklər ədəbiyyata da təsirsiz ötüşmədi. Bu illər aralığında ədəbiyyatda durğunluq müşahidə edilsə də, 1980-ci illərdən başlayaraq özbək ədibləri din, xalq və azadlıq mövzusunda yeni əsərlər ərsəyə gətirməyə başladılar (5, s.136).

## 7. Müstəqillik dövrü ədəbiyyatı

1991-ci ildə Özbəkistanın rus işğalından xilas olaraq müstəqillik əldə etməsi ilə birlikdə özbək ədəbiyyatına da yeni bir nəfəs gəldi. SSRİ-nin dağılması ilə birlikdə yazıçılar üzərinə qoyulan qadağalar da aradan qalxmış, bu da ədəbiyyatın dirçəlməsi üçün şərait yaratmışdır. Artıq yazıçı və sənətkarlar bir ideologiyaya xidmət edən məhdud fikirlərdən deyil, insan ruhunu və duyğularını ifadə edən şeir, roman, hekayə və romanlar yaza bilirdilər. Bu dövrün ən görkəmli şair və yazıçılarından özbək xalq şairi Erkin Vahidov və Şükür Xolmirzəyevi nümunə göstərmək olar. Erkin Vahidov klassik şeir ilə müasir dövrü əlaqələndirməyi bacaran dahi şairlərdən biri olmuşdur. İnsan və cəmiyyət onun şeirlərinin əsas mövzusu olmuşdur (4, s.152).

Müstəqillik dövrü ədəbiyyatında müasir dövrü özündə əks etdirən lirik və epik əsərlərin qarışığı olan mənzum hekayə və mənzum roman kimi yeni ədəbi janrlar ortaya çıxmışdır. Muasir dövrün yazıçıları həm yenilikçi ideyaları, həm də əsərlərinin səlis dili baxımından özündən əvvəlki yazıçılardan xeyli fərqlənirdilər (9, s.112).

Müasir dövr özbək ədəbiyyatında əsas yer tutan janrlardan biri də dram janrı olmuşdur. Bu dövrdə yazılan səhnə əsərlərinin mövzusunu keçmişdən bu günə kimi özbək xalqının göstərdiyi müstəqillik mübarizəsi və istiqlal xəyalları təşkil edirdi (9, s.112).

Bu dövrdə yaranan ədəbi əsərlərdə insanların könül dünyası, mənəvi duyğuları və düşüncələri təsvir olunmağa başladı (8, s.145). Fərdi məsələlərlə birlikdə sosyal məsələlər və həlli yolları haqqında mövzulara da geniş yer verilirdi. Burada isə əsas məqsəd müstəqillik qazanmış xalqı maarifləndirmək, onlara milli kimlik ruhunu aşılamaq idi. Bu istiqamətdə milli hissləri oyadan çoxlu əsərlər yazılmışdır. Yeni müstəqilliyini əldə edən özbək xalqı rus dilindən əl çəkərək öz dilində danışmağa başlamışdır (6, s. 2).

Ümumilikdə müstəqillik dövrü özbək ədəbiyyatı yazıçıları sosializimin təsirindən xilas olub, müstəqil şəkildə yazıb-yaratmaq hüququ əldə etmiş və bu sahədə də böyük uğurlar əldə etmişlər.

## Nəticə

Qədim və zəngin tarixə malik olan özbək ədəbiyyatı əsrlər boyunca müxtəlif inkişaf mərhələlərindən keçmiş və günümüzə qədər fərqli formalarda tərəqqi etmişdir. Bu mərhələlərə nəzər yetirsək özbək ədəbiyyatının yazılı ədəbiyyatın qələmə alındığı dövrdən başlayaraq bu günədək keçdiyi hər bir dövrün bütün siyasi və ictimai xüsusiyyətlərini özündə əks etdirdiyini görə bilərik. Tarix boyunca müxtəlif dövrlərdə monqol və rus işğallarına məruz qalan özbəklər, hər bir sahədə olduğu kimi ədəbiyyat sahəsində də sıxışdırılmış, azadlıqları əllərindən alınmışdır.

Klassik dövr özbək ədəbiyyatında adətən fars dilində yazmağa meyilli olan ədiblər daha çox əruz vəznində yazıb-yaratmağı üstün tuturdular. Yeni dövr ədəbiyyatının başlaması ilə özbək dilinin istifadəsi də artmağa başladı. Artıq görkəmli yazıçı və şairlər öz əsərlərini xalq dilinə yaxın, səlis və anlaşıqlı yazırdılar. Bu da ədəbiyyata xalq tərəfindən daha çox rəğbət bəslənməsi ilə nəticələndi.

Özbək ədəbiyyatı rus istilası dövründə də müəyyən təzyiq və təqiblərə məruz qalmışdır. SSRİ

hakimiyyəti altında olan özbək ədibləri Böyük Vətən müharibəsi dövründə adətən vətənpərvərlik və qəhrəmanlıq mövzularında yazıb-yaratmış, xalqı qalibiyyət üçün ruhlandırmışdır. Lakin, müharibədən sonrakı dövrlərdə bir çox görkəmli şair və yazıçılar Kommunist ideologiyasının qurbanı olmuş və uzaq yerlərə sürgün edilmişlər. Bu dövrdə yazılan əsərlər Kommunist partiyasının tələblərinə əsasən yazılmış, şair və yazıçıların söz azadlıqları əllərindən alınmışdır.

1991-ci ildə Özbəkistan Respublikasının müstəqilliyini elan etməsi ilə bərabər özbək ədəbiyyatı da azadlığa çıxmışdır. Bu dövrdən başlayaraq görkəmli özbək ədibləri öz fikirlərini azad şəkildə yazmaq və ifadə etmək hüququna malik idilər.

## ƏDƏBİYYAT


1. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Contant Empary, 2011, 568 s.
2. Nəvai Ə. Seçilmiş əsərlər. Bakı: Öndər nəşriyyat, 2004, 424 s.
3. Açık F. Özbek Edebiyatı, Ankara: Alp Yayınları, 2007: 166 s.
4. Köprülü Mehmet Fuat. Cığatay Edebiyatı. İslam Ansiklopedisi, III. Cilt. İstanbul:Milli Eğitim Basımevi, 1945: s. 270-323.
5. Mehran A. Yazılı Özbek Edebiyatı // C.Ü. Sosyal Bilimler Dergisi, 2007, C. 31, №2, s. 125-138.
6. Oba E. Bağımsızlık Devri Özbek Edebiyatı // Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 9/3 Winter 2014, p. 997-1008.
7. Uygur C, Özbekçe, Isparta: Fakülte Kitabevi, 2008, 210 s.
8. Üşenmez E. Modern Özbek Edebiyatı // Uluslararası Sosyal Araştırmalar Dergisi, 2011, C. 4, №9, s. 115-169.
9. Yuldashev M. Çağdaş Türk Edebiyatları, II., Eskişehir: Anadolu Üniversitesi Web-Ofset, 2013, 226 s.
10. Adizova İ. Uzbek mumtaz adabiyeti tarixi. Taşkent: Fan naşriyeti, 2009: 247 s.
11. Mirzayev S. XX asr uzbek adabiyeti. Taşkent: Yangı asr avlodi naşriyeti, 2005: 416 s.
12. Valixujayev B. Uzbek adabiyetşünaslıq tarixi. Taşkent: Uzbekiston naşriyeti, 1992, 191 s.
13. Шербекова Г.Я. Особенности узбекской литературы XVII – XIX веков // Uzbekistan, 2020, № 2 (80). Часть 2.
14. Eckmann J. Nevaî'nin İlk Divanları Üzerine // TDAY, Belleten, 1970, Ankara: TDK Yayınları, 1971, s. 253-269



***Резюме***

***Лала Байрамова Вахидли***

***История развития узбекской литературы***

Узбекский народ – один из тюркских народов с многовековой историей и богатой культурой. На протяжении многих лет литература играла важную роль в формировании мышления и мировоззрения узбекского народа. На протяжении веков узбекская литература, подвергавшаяся различным трудностям, политическим преследованиям и репрессиям, прошла различные этапы развития. Выдающиеся писатели, представлявшие каждый этап, описывали своими перьями трудности, плохие и хорошие условия своего времени. Учитывая разные прошедшие периоды, мы разделяем узбекскую литературу на две основные части: классический и новый период. Каждый период делится на различные этапы в соответствии со своими творческими особенностями. На протяжении всей истории смена власти в Туркустане время от времени оказывала серьезное влияние как на литературу, так и на все сферы деятельности. В результате некоторые периоды узбекской литературы были яркими, а некоторые периоды подвергались гонениям и застою. Творчество Алишира Наваи можно назвать золотым веком литературы XV века. Внутренний кризис, произошедший в Туркустане в XVI веке, стал причиной разделения не только страны, но и литературы на разные части. В этот период узбекская литература развивалась не в целом, а в развитии разных ханств и имела разные особенности. Возрождение узбекской литературы, подавленной как во время монгольской, так и в русской оккупации, начинается в XIX веке. С этого периода узбекские писатели стали писать и творить на местном языке, а интерес к литературе еще больше возрос. Писатели и поэты, которые были вынуждены писать и творить в соответствии с коммунистической идеологией в СССР, получили свободу творчества в 1991 году с обретением независимости Узбекистана. С этого периода в узбекскую литературу пришло новое дыхание.

В данной статье подробно исследованы периоды и этапы развития узбекской литературы. Кроме того,

были разъяснены произведения узбекских поэтов и писателей, представляющие каждый этап, основные характеристики периода и основные причины, препятствованию литературы.

**Ключевые слова:** *узбекская литература, период, современная литература, произведения, джадид, чагатай*

***Summary***

***Lala Bayramova Vahidli***

***Hıstory of development of uzbek lıterature***

The Uzbek people are one of the Turkic peoples with centuries-old history and rich culture. Over the years, literature has played a major role in shaping the thoughts and worldview of the Uzbek people. Over the centuries, Uzbek literature, subjected to various difficulties, political persecutions and repressions, has gone through various stages of development. Prominent writers representing each stage described the difficulties, bad and good conditions of their time with their pens. Taking into account the different periods it has passed, we divide Uzbek literature into two main parts: classical and new period. Each period is divided into different stages according to its creative characteristics. Throughout history, the change of power in Turkustan from time to time has had a serious impact on literature as well as on every field. As a result, some periods of Uzbek literature were bright, but some periods were persecuted and stagnated. We can mention Alishir Navai's work as the golden age of 15th century literature. The internal crisis that occurred in Turkustan in the 16th century caused not only the country, but also literature to be divided into different parts. During this period, Uzbek literature developed not as a whole, but in the development of different khanates and had different characteristics. The revival of Uzbek literature, which was suppressed under both the Mongol and Russian occupations, begins in the 19th century. From this period, Uzbek writers began to write and create in the local language, and the interest in literature increased even more. Writers and poets who were forced to write and create according to the communist ideology within the USSR gained the freedom of writing in 1991 with the independence of Uzbekistan. A new breath came to Uzbek literature from this period.

In this article, the periods and stages of Uzbek literature have been extensively investigated. In addition, works of Uzbek poets and writers representing each stage, the main characteristics of the period and the main reasons that hindered literature were explained.

**Key words:** *Uzbek literature, period, modern literature, works, Jadid, Chagatay*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Cəlilov Firudin Ağası oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.